**UOT 1.314.390.**

*DOI: 10.25045/ASUCAAI.2025.48*

# SÜNİ İNTELLEKT VƏ GENDER MƏDƏNİYYƏTİ: RƏQƏMSAL DÖVRDƏ QADININ YERİ

**Sədaqət Əliyeva**
Sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent
Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti
Bakı, Azərbaycan
sadagat-aliyeva@mail.ru

**Xülasə**

Bu araşdırma süni intellektin gender aspektindəki təsirini təhlil edərək, onun imkanları və risklərini qiymətləndirir. SI-nin gender bərabərliyini dəstəkləmə potensialı olmasına baxmayaraq, onun qərəzsiz və ədalətli istifadəsi üçün yeni siyasətlər və etik normaların formalaşdırılması vacibdir. Xüsusilə texnoloji alqoritmlərdə və məlumat bazalarında müşahidə olunan fallologosentrik yanaşmalar gender balanssızlığını dərinləşdirə bilər. Bu səbəbdən, gələcəkdə SI sistemlərinin gender bərabərliyini daha effektiv şəkildə təşviq etməsi üçün inklüziv və etik yanaşmalar vacib rol oynayacaq.

**Sadagat Aliyeva**

**Artificial Intelligence and Gender Culture: Women’s Place in the Digital Era**

**Abstract**

This study analyzes the gender impact of artificial intelligence, assessing its opportunities and risks. While AI has the potential to support gender equality, it is important to formulate new policies and ethical norms for its impartial and fair use. Phallocentric approaches, especially in technological algorithms and databases, can deepen gender imbalances. Therefore, inclusive and ethical approaches will play an important role in ensuring that AI systems promote gender equality more effectively in the future.

**Садагат Алиева**

**Искусственный интеллект и гендерная культура: место женщин в цифровую эпоху**

**Аннотация**

В этом исследовании анализируется гендерное воздействие искусственного интеллекта, оцениваются его возможности и риски. Хотя ИИ имеет потенциал для поддержки гендерного равенства, важно сформулировать новую политику и этические нормы для его беспристрастного и справедливого использования. Фаллоцентрические подходы, особенно в технологических алгоритмах и базах данных, могут усугубить гендерный дисбаланс. Поэтому инклюзивные и этические подходы будут играть важную роль в обеспечении того, чтобы системы ИИ более эффективно способствовали гендерному равенству в будущем.

**Açar sözlər:** Sİ, gender, qərəzlilik, rəqəmsallıq, qadın.
**Keywords:** AI, Gender, Bias, Digital, Women.
**Ключевые слова**: ИИ, пол, предвзятость, цифровой, женщина.

Süni intellekt (Sİ) maşınların intellektual davranışını təqlid etmək və mütərəqqi hesablama metodları vasitəsilə insanın idraki funksiyalarını şəkilləndirməyi hədəfləyən kompüter elminin bir sahəsidir [Bansla & Bansla, 2012]. Anlayış kimi 50-ci illərdə Alan Turinqin "Hesablama maşınları və intellekt" məqaləsi ilə əsası qoyulan, Süni intellekt termini 1956-cı ildə, kiçik bir qrup kişi alim Dartmut Universitetində süni intellektlə bağlı yay tədqiqat layihəsi üçün görüşən zaman yaradılmışdır [de Assis Nunes, 2023]. 1956-cı ildə ortaya atılan bu anlayış ilk olaraq "ağıllı süniləşdirilmiş varlıqlar" yaratma konsepsiyası kimi formalaşsa da, zamanla texnologiyanın sürətlə inkişafı nəticəsində cəmiyyətin ayrılmaz bir hissəsinə çevrilmişdir. Hal-hazırda insan zəkasını imitasiya etməyi hədəfləyən bacarıqlı və mürəkkəb texnologiya [Monko, G. J., & Mjahidi, M. M. 2024]. kimi Sİ demək olar ki, bütün sahələrdə istifadə olunaraq dünya görüşümüzü, iqtisadiyyatı, elm sahələrini və ictimai işləri şəkilləndirir.

Məlumdur ki, tarixən qadınlara qarşı münasibət birmənalı olmayıb. Tarixin müxtəlif mərhələlərində qadınlar zaman-zaman zorakılığa, cinsi ayrıseçkiliyə məruz qalıb. Demək olar ki, müasir dövrümüzdə də cəmiyyətdə kök salmış gender bərabərsizliyi mövcuddur. Bəs süni intellekt necə? Bu istiqamətdə bizə balanslı məlumat verə bilirmi? Və yaxud süni intellektin qadınların gender bərabərliyini dəstəkləmə potensialı kifayət qədər istifadə olunurmu?

Süni intellektin feminist məsələyə çevrilməsi, daha çox **gender bərabərsizliyi və gender qərəzi** kimi problemlərin süni intellekt texnologiyalarında təkrarlanması və bu texnologiyaların cəmiyyətə təsirlərinin araşdırılması ilə əlaqədardır. Bu, 21-ci əsrin texnologiyaları arasında **feminist nəzəriyyə və süni intellekt** arasında əlaqələrin yaranması ilə başlandı.

Son illər süni intellektin cəmiyyətə təsiri daha da artmış və onun gender münasibətlərinə təsir imkanları daha çox araşdırılmağa başlamışdır. Sİ gender bərabərliyini təmin etmə potensialına malik olsa da, onun alqoritmik yanaşmaları və istifadə olunma prinsipləri bəzən qərəzli nəticələr yarada bilir. Xüsusilə süni intellektin məlumat mənbələrindəki qeyri-bərabər paylanmış gender tematikası, tarixi stereotiplər və ya dataları öyrənmə mərhələsindəki qeyri-adekvat yanaşmalar qadınların sosial və peşəkar həyatına neqativ təsir göstərə bilər. Bu qeyri-bərabərliklər, süni intellektin genderə həssas siyasətlər və alqoritm təcrübələri ilə daha müsbət nəticələr verə bilər.

Süni intellektin gender bərabərliyini təmin etmə potensialı barədə danışarkən, genderlərarası asimmetriya və genderlərin informasiya paylanmasında qeyri-bərabərlik kimi məsələlər önə çıxır. Burada, Sİ-nin alqoritmik yanaşmaları və bu alqoritmlər üzərindəki androsentrizm və fallologosentrizm (kişi məntiqinin və təcrübəsinin mərkəz kimi təqdim olunması) kimi qərəzlər gender bərabərsizliyi yarada bilər.

Bu məsələlər, bəzən süni intellektin genderlə bağlı nəzəriyyələrin və gözdən qaçırılmış stereotiplərin tətbiqi nəticəsində gender səviyyəli qeyri-bərabərliklərə səbəb olur. Eyni zamanda, gender sosializasiyası prosesi və genderə uyğun normativlər alqoritmik qərarlara təsir edir, beləliklə

də, qadınların peşəkar həyatda və sosial rollarda yerləşdirilməsi üzərindəki qeyri-bərabərliklər dərinləşə bilər.

Bundan başqa, süni intellektin gender bərabərliyini təşviq etmək potensialı olsa da, sistemlərin cinsiyyətə duyarlı yanaşmaları və etik siyasətlərin inkişafı vacibdir. Genderə həssas siyasətlərin formalaşdırılması və genderlərarası tarazlıq məsələlərinə diqqət yetirilməsi, gələcəkdə süni intellektin daha ədalətli və inklüziv istifadəsini təmin edə bilər.

Bu cür yanaşmalar həm də feminist nəzəriyyələri, məsələn, radikal feminizm və postkolonial feminizmin cəmiyyətin texnoloji tərəqqisinə, xüsusilə də süni intellekt sahəsindəki təsirinə dair şərhlərini əks etdirir.

Bu araşdırmanın *məqsədi* süni intellektin gender mədəniyyətinə təsirini araşdırmaq, onun qadınların sosial və peşəkar həyatına təsirini qiymətləndirmək və bu sahədə yaranan potensial problemlərə həll yolları təklif etməkdir. Şübhəsiz ki, Sİ-nin cəmiyyətə təsirinin artması gender aspektlərinin dərindən araşdırılmasını zəruri edir.

Beynəlxalq təşkilatlar da bu məsələnin ciddiliyini dərketməklə süni intellektin gender bərabərliyi baxımından yaratdığı problemləri həll etmək istiqamətində addımlar atır. Xüsusilə Avropa Şurasının 2024-2029-cu illər ün gender bərabərliyi strategiyası [Avropa Şurası, 2018]. süni intellektin gender problemlərini düzəltmək üçün konkret tədbirlər həyata keçirməyi hədəfləmişdir.

Bu araşdırma süni intellektin gender mədəniyyətinə təsirini ətraflı şəkildə araşdıracaq və qadınların sosial və peşəkar həyatında oynadığı rolu qiymətləndirəcəkdir. Beləliklə, süni intellektin gender çərçivəsində yaratdığı imkanlar və risklər üzərində dayanaraq, daha inklüsiv və bərabər bir gələcək formalaşdırmaq üçün təkliflər irəli sürəcəkdir..

**Metodologiya**

Bu tədqiqat süni intellektin (SI) gender bərabərliyinə təsirini interdisiplinar yanaşma ilə araşdırır və müxtəlif metodoloji alətlərdən istifadə edir. Tədqiqatın əsas məqsədi SI texnologiyalarının mövcud gender münasibətlərini necə formalaşdırdığını, gücləndirdiyini və ya transformasiya etdiyini anlamaqdır. Bu məqsədlə aşağıdakı metodoloji çərçivə seçilmişdir: 1. Məqalənin nəzəri bazasını formalaşdırmaq üçün akademik ədəbiyyat, beynəlxalq hesabatlar və tematik elmi məqalələr sistemli şəkildə təhlil edilmişdir. Xüsusilə gender tədqiqatları, feminist texnologiya tənqidi və rəqəmsal transformasiya sahəsində aparılmış tədqiqatlar nəzərdən keçirilmişdir. 2. BMT, UNESCO, Dünya İqtisadi Forumu və digər beynəlxalq təşkilatların süni intellekt və gender bərabərliyi ilə bağlı təqdim etdiyi statistik məlumatlar araşdırılmışdır. Bu təhlil SI-nin qadınların əmək bazarındakı iştirakı, rəqəmsal bacarıqların bölgüsü və texnologiyaya çıxış imkanlarına təsirini qiymətləndirməyə imkan vermişdir.

**Süni İntellekt və Gender Bərabərliyi: Pozitiv və Neqativ Aspektlər**

Əlbəttə ki, dördüncü sənaye inqilabının əsas istiqamətlərindən biri olan süni intellekt (Sİ) həyatın müxtəlif sahələrində olduğu kimi, gender münasibətlərinə də təsir göstərməkdədir [AI & gender equality manuscript, 2023]. Bu təsir həm müsbət, həm də mənfi nəticələr doğura bilər. Sİ-nin gender bərabərliyinə təsirlərini iki əsas istiqamətdə – pozitiv və neqativ aspektlər üzrə qruplaşdırmaq mümkündür.

**1. Süni İntellektin Gender Bərabərliyinə Pozitiv Təsirləri**

Süni intellekt texnologiyalarının inkişafı qadınların sosial, iqtisadi və peşəkar həyatında mühüm dəyişikliklərə səbəb ola bilər. Bu sahədə aşağıdakı müsbət aspektlər qeyd edilə bilər:

**1.1. Qadınların İqtisadi İştirakının Artırılması**

Qadınlar yüksək texnologiyalı sektorlarda kifayət qədər təmsil olunmurlar. Məsələn, alimlər və mühəndislər arasında qadınların sayı çox azdır: 2019-cu ildə yüksək texnologiyalı sektorlarda çalışan 32 milyon insanın cəmi beşdə biri qadınlar idi və bu nisbət 2010-cu ildən bəri dəyişməz qalıb [Khotkina, 2018]. Süni intellekt bu tendensiyanı dəyişdirmək potensialına malikdir. O, qadınların əmək bazarında daha geniş iştirakına imkan yaradaraq onların rəqəmsal iqtisadiyyat və texnologiya sektorlarına inteqrasiyasını gücləndirə bilər.

Xüsusilə süni intellekt əsaslı avtomatlaşdırılmış sistemlər və rəqəmsal iş yerləri sayəsində uzaqdan iş imkanlarının genişlənməsi qadınların karyera və ailə balansını daha rahat şəkildə qurmasına kömək edir. Bu, xüsusilə ailə məsuliyyətləri səbəbindən ənənəvi iş mühitində iştirak edə bilməyən qadınlar üçün mühüm imkanlar yaradır.

**1.2. Təhsil və Peşə Hazırlığında Bərabər İmkanlar**

Avropa Komissiyasının "Rəqəmsal Dövrdə Qadınlar" adlı araşdırması göstərir ki, qadınların STEM (elm, texnologiya, mühəndislik və riyaziyyat) sahələrinə marağı azalır. Belə ki, 1000 qadın məzundan yalnız 24-ü İKT ilə bağlı bir sahəni öyrənmiş, onlardan isə cəmi 6 nəfər rəqəmsal sektorda işləməyə davam etmişdir [Women in the Digital Age, 2018] [Khotkina, 2018]. Bu göstəricilər qadınların rəqəmsal sektor və texnologiya sahələrində iştirakının artırılmasının zəruriliyini ortaya qoyur.

Süni intellekt bu problemi həll etmək üçün müxtəlif platformalar vasitəsilə fərdi təhsil imkanları təqdim edə bilər. Süni intellekt əsaslı adaptiv öyrənmə sistemləri və virtual təlim proqramları qadınların STEM sahələrində bilik və bacarıqlarını inkişaf etdirməsinə kömək edə bilər. Bununla yanaşı, süni intellektin dəstəklədiyi mentorluq proqramları qadınların texnologiya sahəsində peşəkar inkişafına dəstək göstərə bilər. **Rəqəmsal təhsil resursları** vasitəsilə qadınlar üçün daha **inklüziv** və **gender-bərabər** bir öyrənmə mühiti yaradıla bilər.

**1.3. Gender qərəzinin azaldılması və inklüzivlik**

Qlobal Gender Bərabərsizliyi Hesabatı 2023-ə görə, qadınlar qlobal texnologiya sənayesində mütəxəssislərin cəmi 30%-ni, süni intellekt sahəsində isə cəmi 22%-ni təşkil edir [AI & gender equality manuscript, 2023]. Süni intellekt inklüziv siyasətlərin hazırlanması və gender balansının qorunmasına dəstək ola bilər. Məsələn, Sİ vasitəsilə işə qəbul proseslərində gender neytral seçimlər tətbiq edilə bilər. Algoritmik seçmə sistemləri və data təhlili genderin təsirini minimuma endirərək, daha ədalətli və obyektiv işə qəbul qərarlarının qəbul edilməsinə şərait yarada bilər. Bundan əlavə, gender balansını qoruyan alqoritmlər sosial mediada və rəqəmsal platformalarda qadınların daha ədalətli təmsil olunmasına şərait yarada bilər. Bu yanaşmalar gender qərəzini azaldaraq, bərabər təmsilçilik və inklüziv mədəniyyətin formalaşmasına kömək edir.

Beləliklə, süni intellekt texnologiyaları qadınların sosial, iqtisadi və peşəkar həyat sahələrində əhəmiyyətli bir təsir yaratmaqla, gender bərabərliyini təşviq etməkdə mühüm rol oynaya bilər. Bu istiqamətdə atılacaq addımlar, gender stereotiplərini zədələyərək daha inklüziv və bərabər imkanlara sahib cəmiyyətin formalaşmasına şərait yarada bilər.

2. Süni intellektin gender bərabərliyinə neqativ təsirləri.

Süni intellekt texnologiyalarının sürətli inkişafı yeni imkanlarla yanaşı, mövcud gender bərabərsizliyini daha da dərinləşdirən bir sıra riskləri də ortaya çıxarır. Bu texnologiyaların formalaşmasında iştirak edən struktur və mədəni faktorlar feminist tənqid nöqteyi-nəzərindən ciddi şəkildə araşdırılmalıdır. Aşağıda süni intellektin gender bərabərliyinə mənfi təsir edən əsas aspektləri feminist və gender nəzəriyyələri prizmasından təqdim edirik:

**2.1. Alqoritmik qərəzlilik və gender stereotiplərinin reproduksiyası**

Süni intellekt sistemləri əsasən tarixi məlumat bazalarına əsaslandığı üçün cəmiyyətin mövcud patriarxal strukturlarını və gender stereotiplərini təkrarlamaq riski daşıyır. Bu hal epistemoloji ədalətsizlik (epistemic injustice) və texnoloji patriarxallıq (technopatriarchy) anlayışları ilə izah oluna bilər. Məsələn, işə qəbul proseslərində istifadə olunan alqoritmlər keçmiş məlumatları təkrarlayaraq kişiləri daha çox tövsiyə edir. Bundan əlavə, Pew Research Center (2023) məlumatına əsasən, süni intellekt modelləri kişilərin fikirlərini qadınlara nisbətən daha dəqiq əks etdirir. Respondentlərin 50%-dən çox kişisi onların fikirlərinin nəzərə alındığını hiss etdiklərini bildirərkən, qadınların yalnız üçdə birindən bir qədər çoxu bu fikirdədir. Bu, diskursiv ayrı-seçkilik və rəqəmsal gender fərqliliyinin (digital gender gap) daha da güclənməsinə səbəb olur [Borisenco, 2023].

**2.2. Qadınların texnologiya sektorunda iştirakının məhdud olması**

Süni intellekt sahəsində qərarverici mövqelərdə çalışan şəxslərin əksəriyyəti kişilərdən ibarətdir. Bu, gender təmsilçiliyi (gender representation) problemini gündəmə gətirir və androcentrik texnoloji inkişafı gücləndirir. Qadın perspektivindən məhrum dizayn prosesi nəticəsində yaranan alqoritmlər, qadınların təcrübə və ehtiyaclarını nəzərə almadan işləyir. Bu, inklüziv texnologiya prinsipinin pozulması ilə nəticələnir.

**2.3. Cinsiyyətçi süni intellekt məhsulları və xidmətləri**

Gender stereotipləri bir çox süni intellekt əsaslı məhsullarda – xüsusilə chatbotlar və virtual köməkçilərdə – açıq şəkildə görünür. Siri, Alexa kimi rəqəmsal köməkçilərin qadın səsi ilə proqramlaşdırılması qadınları itaətkar və xidmətçi obrazı ilə təqdim edir və “rəqəmsal gender rolları” (digital gender roles) anlayışını doğurur. Bu hal genderləşdirilmiş texnologiya (gendered technology) və semiotik qərəz (semiotic bias) kontekstində təhlil oluna bilər.

**2.4. Süni intellektin qadınların məxfiliyi və təhlükəsizliyinə təhdidi**

Biometrik sistemlər, üz tanıma texnologiyaları və rəqəmsal nəzarət vasitələri qadınların şəxsi məkanına müdaxilə riski daşıyır. Xüsusilə ictimai fəallıq göstərən qadınlar üçün bu texnologiyalar rəqəmsal nəzarət rejimləri (digital surveillance regimes) çərçivəsində təhlükə yaradır. Bu vəziyyət cyberfeminizm və rəqəmsal təhlükəsizlik (digital security) anlayışları çərçivəsində feminist tənqidə açıqdır.

**Nəticə**

Süni intellektin gender bərabərliyinə təsiri çoxşaxəli və mürəkkəb bir fenomendir. Bu texnologiya bir tərəfdən inklyuzivlik, rəqəmsal bərabərlik və gender əsaslı transformasiya imkanları yaratmaqla cəmiyyətin demokratikləşməsi istiqamətində mühüm alət rolunu oynaya bilər. Qadınların qərarvermə proseslərində iştirakını artırmaq, səhiyyə, təhsil və hüquq kimi sahələrdə qadınların həyat keyfiyyətini yüksəltmək üçün süni intellektdən istifadənin potensialı azımsanmayacaq dərəcədədir. Eyni zamanda, qadın subyektivliyinin tanınması, məlumat əsaslı gender siyasətlərinin

formalaşdırılması və rəqəmsal imkanlara çıxışın ədalətli bölüşdürülməsi süni intellektin sosial cəhətdən səmərəli tətbiqi ilə birbaşa əlaqəlidir.

Bununla belə, aparılan təhlillər göstərir ki, süni intellektin tərtibatı və tətbiqi prosesi hələ də ciddi struktur gender qərəzləri, epistemoloji assimetriya və texnoloji patriarxallıq çərçivəsində inkişaf edir. Alqoritmik qərarların tarixi məlumatlara əsaslanması nəticəsində gender stereotiplərinin reproduksiyası, qadınların texnologiya sektorunda iştirakının məhdudluğu, cinsiyyətçi dizayn nümunələrinin yayılması və qadınların rəqəmsal təhlükəsizliyinin zəifləməsi bu texnologiyanın sistematik gender ayrı-seçkiliyini necə təkrarlaya bildiyini göstərir. Xüsusilə rəy-asimmetriyası və dijital marginalizasiya kimi anlayışlar süni intellektin qadınları informasiya strukturunda necə periferiyaya itələdiyini açıqlamaq baxımından əhəmiyyətlidir.

Beləliklə, süni intellektin gender bərabərliyi üçün əsl potensialı yalnız o halda reallaşa bilər ki, onun inkişafı və tətbiqi feminist etik dəyərlər, gender-şüurlu yanaşmalar və sosial ədalət prinsipləri ilə uyğunlaşdırılsın. Bütün maraqlı tərəflərin – texnoloqların, tədqiqatçıların, siyasətçilərin və feminist aktivistlərin – iştirakı ilə aparılacaq interdisiplinar və inklüziv yanaşmalar texnoloji inkişafın gender bərabərliyinə real töhfə verməsini təmin edə bilər.

## Ədəbiyyat siyahısı:

1. AI & gender equality manuscript. (2023, August 15). Can artificial intelligence enable versus inhibit gender equality for the Sustainable Development Goals? What scientists know so far. https://www.intechopen.com/online-first/1192227
2. Avropa Şurası. (2018). *Gender bərabərliyi strategiyası 2018-2023*. https://rm.coe.int/ge-strategy-2018-2023-azerbaijani/16808cdbd9
3. Bansla, A., & Bansla, N. (2012). Artificial intelligence. International Journal of Applied Engineering Research, 7(11). Research India Publications. Retrieved April 9, 2025, from https://www.researchgate.net/publication/298171814_Artificial_intelligence
4. Borisenco, L. (2023, İyul 26). Süni intellektdə gender bərabərsizliyi və "çəhrayı vergi". GURU. https://guru.nes.ru/actual/gendernoe-neravenstvo-v-iskusstvennom-intellekte-i-nalog-na-rozovoe.html
5. Castro, J. (2023, September). AI as a feminist issue. CASTAC Blog. https://blog.castac.org/2023/09/ai-as-a-feminist-issue/
6. Nunes, Ana Carolina de Assis. (2023, September 5). AI as a feminist issue. Retrieved April 9, 2025. https://blog.castac.org/2023/09/ai-as-a-feminist-issue/
7. Govorova, N. V. (2021). Women in the digital economy of the European Union. Woman in Russian Society, (2), 161–173. https://doi.org/10.21064/WinRS.2021.2.12
8. Guru. (n.d.). Gendernoe neravenstvo v iskusstvennom intellekte i "nalog na rozovoe" [Gender inequality in artificial intelligence and the "pink tax"]. NES GURU. https://guru.nes.ru/actual/gendernoe-neravenstvo-v-iskusstvennom-intellekte-i-nalog-na-rozovoe.html
9. Khotkina, Z. A. (2018). Towards digital gender equality. Woman in Russian Society, (3), 5–13. https://doi.org/10.21064/WinRS.2018.3.1
10. Monko, G. J., & Mjahidi, M. M. (2024). From bias to balance: Navigating gender inclusion in AI. IntechOpen. https://doi.org/10.5772/intechopen.1007449